# Trunçbul qışqırdı, stuldan dik atıldı...

Xanım Trunçbul su bardağını qaldırdı və stəkana su tökdü. Elə bu zaman qəflətən nazik, uzun triton da şappıltıyla stəkanın içinə düşdü.

Trunçbul qışqırdı, stuldan dik atıldı – lap fişəng sürətiylə.Trunçbul – bu yekəpər, nəhəng, yaşıl corablı qadın kənarda dayanıb nanə yarpağı kimi əsirdi.

Onu ən çox qəzəbləndirən o idi ki, kimsə istədiyinə nail olmuşdu. Bu yekəlikdə qadın stuldan tullanmışdı. O, stəkanın içində burula-burula üzən bu iyrənc məxluqa baxdı.

– Matilda! – xanım Trunçbul "hürdü". – Ayağa dur!

– Kim? Mən? – Matilda dedi. – Mən nə etmişəm ki?

– Sən, balaca tarakansan, yalançısan! – Trunçbul bağırdı. – Sən bu məktəbə layiq deyilsən. Sənin yerin bardır! Sən elə yerdə olmalısan! Mən səni bu məktəbdən rədd edəcəm! Səni hokkey ağaclarıyla məktəb darvazasından çölə tullamaq lazımdır! Sənin yaşadığın evin ətrafına mühafizə dəstəsi yerləşdirmək lazımdır! Səni ən azı 40 il müddətinə cinayətkarların islahedici müəssisəsinə yollamaq lazımdır!

Trunçbul o qədər qəzəblə danışırdı ki, ağzının kənarlarından köpük daşırdı. Amma sinifdə qəzəblənən, özündən çıxan təkcə o deyildi. Matildanın da sifəti getdikcə qızarırdı. Etmədiyi hərəkət üçün günahlandırılması ona çox pis təsir edirdi. O bilirdi ki, bu ədalətsizlikdir. Etmədiyi cinayətdə günahlandırılmaq onun üçün yeni bir təcrübə idi. O, yaxşı bilirdi ki, stəkanın içindəki məxluqun ona heç bir dəxli yoxdur. Ürəyində fikirləşirdi ki, Trunçbul bu dəqiqə stəkanın içindəki məxluqu onun təpəsinə sancaqlayacaq.

## Roald Dahlın uşaqlar üçün yazdığı kitablar

*Böyük, Sevimli Azman*

*Oğlan: Uşaqlıq nağılı*

*Çarli və şokalad fabriki*

*Çarli və böyük şüşə lift*

*Dünya çempionu Denni*

*Çirkli heyvanlar*

*Nəhəng timsah*

*Esio qaçışı*

*Fantastik cənab Tülkü*

*Corcun  ecazkar dərmanı*

*Zürafə, Pelli və Mən*

*Solo gedən*

*Ceyms  və nəhəng şaftalı*

*Sehirli barmaq*

*Matilda*

*Minpins*

*İtmiş qızıl bilet  və başqa gözəl sirlər*

*Roald Dahlı üsyan edən qafiyələri*

*Ağıldankəmlər*

*Niblesvike keşişi*

*Küpəgirənlər*

*Henri Şuqerin gözəl hekayəsi*

# Kitabın içindəkilər


Oxucu – Matilda ........................................ 9
Cənab Vormvud – maşın alverçisi ........................................ 24
Şlyapa və superkley ........................................ 32
Qarabasma ........................................ 40
Hesab ........................................ 51
Sarışın kişi ........................................ 58
Xanım Honey ........................................ 68
Xanım Trunçbul ........................................ 84
Valideynlər ........................................ 92
Çəkicatma ........................................ 103
Bryus Boqtrotter və tort ........................................ 119
Lavender ........................................ 136
Həftəlik yoxlama ........................................ 143
Birinci möcüzə ........................................ 161
İkinci möcüzə ........................................ 172
Xanım Honeyin daxması ........................................ 179
Xanım Honeyin hekayəti ........................................ 195
Adlar ........................................ 208
Təcrübə ........................................ 212
Üçüncü möcüzə ........................................ 217
Təzə ev ........................................ 229



# Oxucu – Matilda

Bu kitab analar və atalar haqqında gülməli əhvalatlardan ibarətdir. Bəzən bu valideynlərin balaca uşaqları zəhlətökən, iyrənc məxluqlar olsa da, onlar hələ də uşaqlarının dünya gözəli olmasını fikirləşirlər.

Bəzi valideynlər bu məsələdə daha uzağa gedirlər. Onlar uşaqlarına elə məftun olurlar ki, hətta özlərini uşaqlarının dahi olmağına inandırırlar.

Hə, əlbəttə, burda səhv yoxdur. Bütün dünyada belədir, bu, həyatın bir qanunudur. Belə valideynlər uşaqlarının dahiliyindən söz açanda, biz daha özümüzü saxlaya bilmir, onlara deyirik: "Tez olun, ləyən gətirin, qusmağım gəlir".



Belə valideynlərin öz uşaqlarına məftunluğundan məktəb müəllimləri də əziyyət çəkirlər: uşaqlarıyla fəxr edən ata-anaların boşboğazlığına qulaq asmalı olurlar. Amma rüb sonunda bu cür uşaqlar haqqında hesabat yazmaq vaxtı gələndə onlar öz bildiklərini yazırlar. Mən o müəllimlərin yerinə olsaydım, belə yazardım: "Oğlunuz *Maksimilian* fəlakətdən başqa heç nə deyil. Ümid edirəm ki, ailə biznesiniz var, o, məktəbi bitirən kimi siz onu bu biznesə dürtüşdürsəniz, lap yaxşı olar. Onsuz da onu heç yerdə işə götürən olmayacaq". Ya da həmin gün kefim yuxarı olsa da, yazardım: "Bu bir həqiqətdir ki, cırcıramaların ürəyi onların qarın boşluğunda yerləşir. Amma qızınız Vanessanın bu rübdəki fəaliyyətini nəzərə alsaq, onun heç qarnında da ürəyi yoxdur".



Hətta daha dərinə gedib belə yazardım: "Periodik cırcırama sürfəsi altı ili sürfə kimi yerin altında keçirir, azad bir məxluq kimi cəmi-cümlətanı altı günü günəş işığında və havada keçirir. Oğlunuz Vilfred bu məktəbdə altı il sürfə kimi vaxt keçirib, biz hələ də gözləyirik ki, o, sürfəni yarıb zühur eləsin".

Zəhər tuluğu olan balaca qızcığaz haqqında isə belə deyərdim: "Fionanın gözəlliyi aysberqin gözəlliyi kimidir, amma aysberqdən fərqli olaraq, onun səthinin altında heç nə yoxdur". Mənə elə gəlir ki, müəllim olsaydım, sinfimdəki alçaq, cəncəl uşaqlar barəsində rüb sonunda belə hesabatlar yazmaqdan həzz alardım.

Eh, nə isə. Biz hekayəmizə davam etməliyik.





Bəzən isə elə valideynlərə rast gəlirik ki, onlar əksinə, öz uşaqlarını heç vecə almırlar. Əlbəttə, bu, uşaqlara hayıl-mayıl olmaqdan daha pisdir. Xanım və cənab Vormvudlar belə valideynlərdən idi. Onların Maykl adlı bir oğlu, Matilda adında da bir qızı vardı. Vormvudlar üçün Matilda qoturdan başqa heç nə deyildi. Qotur da elə bir şeydir ki, gec-tez ondan canını qurtarmalısan. Xanım və cənab Vormvudlar da belə bir günü həsrətlə gözləyirdilər ki, qızlarından canlarını qurtarsınlar və onu harasa uzaq bir ölkəyə yollasınlar.





Əlbəttə, adi uşaqla qotur kimi davranmaq yaxşı əlamət deyil. Matilda ilə belə rəftar edirdilər, amma hər şeydən əvvəl onun parlaq istedadı vardı. O çox diribaş idi, hər şeyi çox cəld qavrayırdı. Lakin valideynləri elə axmaq idi və həyatlarına elə qapılmışdılar ki, qızcığazın bu istedadını görə bilmirdilər.

Matildanın qardaşı Maykl tam normal oğlan idi. Amma, artıq dediyim kimi, bacısı Matilda gözünüzü hədəqəsindən çıxaracaq dərəcədə qabiliyyətli bir qız idi. Bir yaşında və yaş yarımlıq olanda onun nitqi normal idi, böyük adamlarınkı qədər söz ehtiyatı vardı. Valideynləri onun bu istedadını alqışlamaq əvəzinə onu heyvərə, gəvəzə adlandırır, heç bir balaca qıza deyilməyən sözlər deyirdilər.

Üç yaşı olanda Matilda artıq evdə olan bütün qəzet və jurnalları oxuya bilirdi. Beş yaşı olanda o daha sürətlə oxuyur, mütaliə üçün kitablar arzulayırdı. Onun doğulduğu evdə yeganə kitab "Asan Kulinariya" idi. Bu kitab onun anasına məxsus idi. Matilda bu kitabın içindəkiləri bir-bir oxumuşdu, artıq oradakı reseptləri əzbər bilirdi. Onları öyrənəndən sonra qızcığaz anladı ki, daha maraqlı kitablar oxumalıdır.

